**"Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün standartlar"ın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR

KABİNETİNİN QƏRARI

"Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

"Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün standartlar" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov**

Bakı şəhəri,_______ 2019-cu il

№_____

Azəbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il ________tarixli ___ nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün Standartlar**

## 1. Ümumi müddəalar

1.1. Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün standartlar (bundan sonra standartlar) “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununun 10.5-cü maddəsinə əsasən hazırlanmışdır.

1.2. Standartlar, özəl və bələdiyyə reabilitasiya müəssisələri tərəfindən göstərilən reabilitasiya xidmətlərini özündə ehtiva etməklə həmin xidmətlərin əsas növlərini və qısa məzmununu müəyyən edir.

1.3. Əlilliyi olan şəxslərin reabilitasiyası əlilliyin aradan qaldırılmasına və ya kompensasiyasına yönəldilmiş tibbi, psixoloji, pedaqoji, idman, sosial-iqtisadi və digər tədbirlər sistemi vasitəsilə əlilliyi olan şəxslərin müstəqilliyinin, fiziki, əqli, məişət, sosial və peşə-əmək qabiliyyətinin tamamilə və ya qismən bərpası tədbirləridir. .

1.4. Lazımi nəticənin əldə edilməsi üçün reabilitasiya xidmətləri erkən - müalicə müddətindən başlanılmalıdır.

1.5. Reabilitasiya xidmətlərinin həyata keçirilməsi minimal vaxtda maksimal effektin əldə edilməsinə yönəldilməlidir.

1.6. Reabilitasiya xidmətləri kompleks şəkildə, müxtəlif profilli mütəxəssislərin iştirakı ilə 1.9-cu bənddə qeyd olunan reabilitasiya xidmətlərinin müxtəlif mərhələlərində aparılmalıdır.

1.7. Reabilitasiya xidmətləri ardıcıl və davamlı olaraq həyata keçirilməlidir. Reabilitasiya, əlilliyi olan şəxsin müstəqilliyinin, fiziki, əqli, məişət, sosial və peşə-əmək qabiliyyətinin tamamilə və ya qismən bərpası təmin edildikdə bitmiş sayılır.

1.8. 2-ci bəndə uyğun olaraq əlilliyi olan şəxsə göstərilən reabilitasiya xidmətlərinin hər mərhələsi və növləri konkret nəticənin əldə olunmasına yönəldilməlidir. Göstərilən xidmətlərlə bağlı əlilliyi olan şəxs məlumatlandırılmalı, hədəfə çatmaq üçün müvafiq mütəxəssislərin təlimat və göstərişlərinə əməl etməlidir.

1.9. Göstərilən reabilitasiya xidmətləri aşağıdakı mərhələləri özündə əks etdirir:

1.9.1.əlilliyi olan şəxsin müayinəsi;

1.9.2. ilkin qiymətləndirmənin aparılması;

1.9.3. reabilitasiya potensialının və proqnozunun müəyyən edilməsi;

1.9.4. fərdi reabilitasiya planının hazırlanması;

1.9.5. reabilitasiyanın aparılması;

1.9.6. reabilitasiyanın gedişatına nəzarət edilməsi;

1.9.7. reabilitasiyanın nəticəsinin qiymətləndirilməsi.

1.10. Reabilitasiya tədbirlərinin növü, forması, tərkibi, həcmi və reabilitasiya tədbirinin həyata keçirilmə müddəti əlilliyi olan şəxsin və (və ya) onun qanuni nümayəndəsinin iştirakı ilə Tibbi-sosial ekspert komissiyaları tərəfindən tərtib edilmiş “Fərdi reabilitasiya proqramı”na əsasən müəyyən edilir.

1.11. Reabilitasiya müəssisəsinə əlilliyi olan şəxslərin qəbulu, reabilitasiya prosedurаları, eləcə də, reabilitasiya müddətinin sonunda əldə olunmuş nəticələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin Reabilitasiya altsisteminə daxil edilir.

1.12. Aparılmış hər bir prosedur və əldə olunmuş nəticə reabilitasiya müəssisəsinin məsul şəxslərin gücləndirilmiş elektron imzası ilə təsdiq edilməlidir.

## 2. Reabilitasiya xidmətlərinin əsas növləri və qısa məzmunu

2.1.Reabilitasiya xidmətləri təyinatından asılı olaraq aşağıdakı növlərə bölünür:

2.1.1. tibbi reabilitasiya tədbirləri;

2.1.2. peşə - əmək reabilitasiyası tədbirləri;

2.1.3. sosial bacarıqların inkişafı (o cümlədən psixoloji-pedoqoji reabilitasiya) tədbirləri.

2.2. Tibbi reabilitasiya – orqanizmin anadangəlmə, yaxud xəstəlik və ya zədə nəticəsində sonradan pozulmuş funksiyalarının bərpasına və kompensasiyasına yönəldilmiş tibbi tədbirlər sistemidir/

2.3.Əlilliyi olan şəxslərin tibbi reabilitasiya tədbirlərinə daxildir:

2.3.1. bərpa müalicəsi;

2.3.2. rekonstruktiv cərrahiyyə;

2.3.3. protezləşmə;

2.3.4. ortezləşmə;

2.2.7. sanator-kurort müalicəsi;

2.3.6. psixoterapiya;

2.3.7. loqopediya;

2.3.8. əlilliyi olan şəxslərin dərman pereparatları ilə təmin edilməsi;

2.3.9. əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin olunması;

2.3.10. əlilliyin dinamikasına nəzarət.

2.4. Əlilliyi olan şəxslər üçün nəzərdə tutulan peşə-əmək reabilitasiyası –əlilliyi olan şəxsin peşə seçiminə, əvvəlki və ya yeni peşədə əmək qabiliyyətinin qaytarılması məqsədi ilə zəifləmiş, yaxud itirilmiş funksiyasının bərpa edilməsinə və ya onun yeni peşəyə uyğunlaşdırılmasına yönəldilmiş tədbirlər sistemidir. Peşə-əmək reabilitasiyasının əsas məqsədi əlilliyi olan şəxsin məşğulluğunun təmin edilməsi və onun əmək bazarına inteqrasiyasından ibarətdir.

2.5. Peşə-əmək reabilitasiyası tədbirlərinə daxildir:

2.5.1. peşə yönümü;

2.5.2. peşə təhsili və təlimi, , ixtisas artırılması;

2.5.3. məşğulluğun təmin edilməsi;

2.5.4. iş yerinin və iş şəraitinin ağlabatan uyğunlaşdırılması;

2.5.5. əlilliyi olan şəxsin iş şəratinə adaptasiyası.

2.6. Sosial bacarıqların inkişafı tədbirləri - əlilliyi olan şəxsə sosial vərdişlərin mənimsənilməsini, onlara digər şəxslərlə bərabər cəmiyyətin həyatında müstəqil iştirak etmək üçün imkanların yaradılmasını təmin edən tədbirlər sistemidir. Sosial bacarıqların inkişafı xidmətlərinin əsas məqsədi əlilliyi olan şəxsə cəmiyyətin həyatında müstəqil iştirak etmək üçün imkanların yaradılmasını və sosial vərdişlərin mənimsənilməsini təmin etməkdən ibarətdir.

2.7. Sosial bacarıqların inkişafı tədbirlərinə daxildir:

2.7.1.sosial-mühit;

2.7.2.sosial-pedoqoji;

2.7.3.sosial-psixoloji;

2.7.4.sosial-mədəni;

2.7.5.sosial idman;

2.7.6.sosial-məişət;

2.7.7.sosial-məlumat;

2.7.8.sosial-texniki;

2.7.9.sosial-hüquq.

**3. Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün tələblər:**

3.1. Özəl və bələdiyyə reabilitasiya subyektləri reabilitasiya tədbirlərinin kompleks şəkildə aparılması üçün, sanitar-gigiyenik, yanğından mühafizə, təhlükəsizlik texnikası və bütün kommunal şəraiti olan binada yerləşdirilməlidir.

3.2. Özəl və bələdiyyə reabilitasiya subyektlərində çalışan mütəxəssislər çalışdıqları sahə üzrə qanunvericilikdə nəzərdə tutulmuş təhsilə və müvafiq diplom və ya sertifikatlara malik olmalıdırlar.

3.3. Özəl və bələdiyyə reabilitasiya subyektləri öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını,və digər normativ hüquqi aktları, həmçinin bu Qaydanı rəhbər tutur.

3.4. Özəl və bələdiyyə reabilitasiya subyektləri öz  fəaliyyətini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya altsistemi üzərindən informasiya mübadiləsi aparmaqla öz işini Nazirliklə əlaqələndirməlidir.